# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 73** **Bakı şəhəri, 19 mart 2021-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 iyul tarixli 308 nömrəli, "Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 16 avqust tarixli 360 nömrəli və "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1331, № 12, maddə 2106; 2020, № 9, maddə 1220) 2-ci hissəsində "yanvarın 1-dən" sözləri "iyulun 1-dən" sözləri ilə əvəz edilsin.

**2.** "Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 avqust tarixli 360 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1465, № 12, maddə 2065; 2020, № 9, maddə 1220) 2-ci hissəsində "yanvarın 1-dən" sözləri "iyulun 1-dən" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1539; 2020, № 9, maddələr 1220, 1229) ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nın 14-cü hissəsində "yanvarın 1-dən" sözləri "iyulun 1-dən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***